# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 81** **Bakı şəhəri, 4 mart 2020-ci il**

***"Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 564; 2012, № 1, maddə 30, № 11, maddə 1208; 2013, № 9, maddə 1133; 2014, № 2, maddə 201; 2015, № 4, maddə 466, № 8, maddə 964; 2016, № 5, maddə 955, № 12, maddə 2239; 2017, № 4, maddə 642; 2018, № 3, maddə 590, № 11, maddə 2431; 2019, № 10, maddə 1675) ilə təsdiq edilmiş 3 nömrəli əlavə – "Azərbaycan Respublikasında ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və magistratura, əsas (baza ali) tibb təhsili və rezidentura səviyyə-lərində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kadr hazırlığının maliyyələşdirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.4-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Əyani təhsilalma formasında tədrisə qismən cəlb olunan tələbənin dövlət sifarişi əsasında maliyyələşdirilməsinə icazə verilmir.".

**2.** 5.7-ci bəndin altıncı abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"- əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növündən tədrisə qismən cəlb olunma (parttime) növünə keçdikdə.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş Naziri***

Xalq qəzeti 2020.- 8 mart.- S.5.